# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

6 NOYABR 2019-cu il ÇƏRŞƏNBƏ № 246 (6573) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ


# Bayrağımız qürur mənbəyimizdir

**Xalqımızın vətənə hədsiz sevgisinin, dövlətə və onun atributlarına böyük hörmətinin təcəssümü kimi, 2010-cu ildən başlayaraq hər il ölkəmizdə Dövlət Bayrağı Günü təmtəraqla qeyd olunur. Bu il də respublikamızın rayon və şəhərlərində Dövlət Bayrağı Günü münasibətilə müxtəlif səpkili tədbirlər keçirilir.**

Ulu öndər Heydər Əliyev dövlət rəmzləri haqqında demişdi: “Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir”. Bəli, Vətənə böyük məhəbbət, dədə-baba yurduna bağlılıq azərbaycanlılara xas olan nəcib bir xüsusiyyətdir. Ana südü ilə qanımıza işləyən bu xasiyyət hesabına xalqımız öz torpağını, dilini, adətlərini qoruya bilmiş, öz dövlətçilik ənənələrini yaşatmışdır. Üçrəngli, ay-ulduzlu bayrağımız isə bu vətən məhəbbətinin simvolu kimi hər zaman xalqımızın qürur yeri olmuş, hansı etnosa, əqidəyə və dinə mənsub olduğumuzu göstərmişdir.

Hər bir müstəqil dövlətin tanınıb fərqlənməsi üçün öz dövlət rəmzləri olur. Azərbaycan dövlətinin də müstəqilliyini simvolizə edən öz bayrağı, gerbi və himni var. Dünyada Azərbaycanın suverenliyini tərənnüm edən bu rəmzlərə ölkəmizdə hədsiz hörmət qoyulur. Dövlət və hökumət bunun üçün əlindən gələni edir. Bütün təhsil, səhiyyə və mədəniyyət ocaqlarında, ictimai yerlərdə dövlət rəmzlərimizin şəkli olan panno və lövhələr qoyulur, nəşr olunan kitab və dərsliklərdə də simvollarımızın əksi vurulur, himnimizin mətni yazılır, radio və telekanallarda, idman yarışlarında, eləcə də müxtəlif səpkili tədbirlərdə himnimiz mütəmadi olaraq səsləndirilir.

Prezident İlham Əliyevin 17 noyabr 2009-cu ildə imzaladığı fərmandan sonra respublikamızda dövlət rəmzlərinə diqqət bir qədər də artıb. Həmin fərmana əsasən hər il noyabr ayının 9-u ölkəmizdə istirahət günü elan edilməklə “Milli Bayraq Günü” qeyd olunur. Burada fərman niyə məhz 17 noyabrda imzalanıb sual oluna bilər. Bu sualın cavabı ölkəmizin müstəqillik tarixindən olan çox böyük bir hadisə ilə bağlıdır.

Üçrəngli bayrağımız ilk dəfə 101 il əvvəl, 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin birinci toplantısının açılışında dalğalanıb. Onun təsis edilməsi haqqında qərar isə 1918-ci ilin 9 noyabrında imzalanmışdır. Bu bayrağın üçrəngli olması ideyasının müəllifi Azərbaycanın böyük mütəfəkkiri Əli bəy Hüseynzadədir.

1920-ci ilin aprelində AXC-nin bolşeviklər tərəfindən işğalı nəticəsində cümhuriyyətin rəmzləri də qadağan edildi. Düz yetmiş il sonra, yəni 1990-cı il noyabrın 17-də ümummilli liderimiz Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Ali Məclisinin sessiyasında üçrəngli bayrağımız yenidən dalğalandırıldı. Həmin sessiyada üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması haqqında tarixi qərar qəbul edilmişdir. Muxtar respublikanın ali orqanı üçrəngli bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan Respublikası Ali Soveti qarşısında vəsatət də qaldırmışdır. Məhz bu hadisədən sonra, yəni 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu”nu qəbul etdi.



**(davamı 2-ci səhifədə)**

# Bayrağımız qürur mənbəyimizdir

**(əvvəli 1-ci səhifədə)**

Bu qanunla milli bayrağımız, istiqlal rəmzimiz bütün Azərbaycan üzərində dalğalanmağa başladı. Dövlət bayrağı dövlətin rəsmi fərqləndirici əlamətidir və onun təsviri Konstitusiyada qanunvericilik yolu ilə təsbit edilir. Dövlət bayrağı məxsus olduğu dövlətin suverenliyinin rəmzidir.

Ulu öndər Heydər Əliyevin siyasi kursuna sadiq qalan və bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev də dövlət atributlarımızı daim uca tutub. Dövlət başçısının milli ideallara bağlılığı özünü üçrəngli bayrağımıza münasibətdə qabarıq göstərir. Bundan irəli gələrək, Prezident İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə, 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncamlar imzalamışdır.

2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində möhtərəm Prezidentimiz İlham Əliyev demişdi: “Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”. Bu sözlər hər bir azərbaycanlıda qürur hissini daha da artırır, xalqla dövlət arasındakı vəhdəti daha da möhkəmləndirir.

2016-cı ilin aprelində cəbhədə baş verən hadisələr Prezidentimizin dediyi bu kəlmələrin adi söz olmadığını təsdiqlədi. Aprel döyüşləri tarixə ordumuzun gücünün, xalqla ordunun birliyinin, vətənpərvərliyinin göstəricisi kimi düşdü. Bu qələbə bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Əks-hücum əməliyyatı aparan hərbi hissələrimiz mühüm mövqelərə sahib oldu. Lələtəpə kimi yüksəklik alındı. Nəticədə 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır.

Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasəti prinsipial və dönməzdir. Azərbaycan Prezidenti münaqişənin nizamlanmasında öz qəti mövqeyini dəfələrlə bəyan edib. Qarabağın əzəli Azərbaycan torpağı olduğunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Soçidə “Valday” beynəlxalq diskussiya klubunda çıxışında da bir daha vurğulayaraq demişdir: “Qarabağ Azərbaycandır! Nida işarəsi!”.

Ölkə başçısı hər zaman gördüyü işlərlə, həyata keçirtdiyi tədbirlərlə Azərbaycan dövlətinin qüdrətinin, xalqın rifahının artmasına nail ola bilib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır.

Cənab İlham Əliyevin inamla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası, böyük şövqlə həyata keçirdiyi islahatlar həm də onun yüksək idarəçilik qabiliyyətinə və mükəmməl iş təcrübəsinə dəlalət edir. Dövlət başçısı praqmatik və rasional addımları ilə respublikada demokratik proseslərə yeni nəfəs vermiş, ölkənin iqtisadi resurslarının bu yöndə səfərbər olunmasına şərait yaratmışdır. 2003-2019-cu illərdə respublikada elmi əsaslara söykənməklə həyata keçirilən siyasət sabit iqtisadi və siyasi sistemin yaradılması, sosial vəzifələrin həlli, əhalinin sosial rifah halının, alıcılıq qabiliyyətinin yüksəldilməsinə, cəmiyyətdə ictimai konsensusun əldə edilməsinə yönəlmişdir. Qazanılan uğurlar Azərbaycanın davamlı surətdə demokratiya yolunda uğurla irəliləməsinə, dünya miqyasında nüfuzunu yüksəlməsinə, özünüifadəsinə geniş imkanlar yaratmışdır.

Azərbaycan iqtisadiyyatı son illərdə özünün keyfiyyətcə yeni və həlledici mərhələsinə qədəm qoymuş, bir sıra sahələrdə kardinal islahatların aparılmasına siyasi, hüquqi və maddi zəmin hazırlamışdır. Respublikamızda formalaşmaqda olan yeni makroiqtisadi mühit - ümumi daxili məhsulun artımı, milli iqtisadiyyatda sahibkarlar sinfinin mövqelərinin əsaslı şəkildə güclənməsi, beynəlxalq iqtisadi münasibətlər sisteminə uğurlu transformasiya, habelə qlobal enerji-kommunikasiya, innovasiya layihələrinin reallaşdırılması nəticə etibarilə demokratikləşmə və vətəndaş cəmiyyəti təsisatlarının sürətli inkişafına, tətbiq olunan mütərəqqi yeniliklərin vətəndaş şüurunda mənimsənilməsinə imkan yaratmışdır.

Bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Müasir Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu vardır. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik olaraq gerçəkləşdirilməsini təmin etmişdir.

Bəli, bu gün Azərbaycan dövləti sürətlə tərəqqi edir, qüdrətlənir, dünyada tanınır. O məşhurlaşdıqca, bayrağımız da dünyanın hər yerində tanınır.

**Fuad MƏMMƏDOV,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.**

Respublika.-2019.-6 noyabr.-S.2.